Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi (KOICA) dövlət qurumlarında çalışan şəxslər üçün Ajou Universitetində Beynəlxalq ticarət və Beynəlxalq biznes üzrə 16 aylıq (2011 fevral - 2012 iyun) magistr proqramını elan etmişdir. Proqram çərçivəsində təhsil ingilis dilində aparılacaqdır.

Proqram çərçivəsində bütün xərclər KOICA tərəfindən ödənilir.

Proqramda iştirak etmək arzusunda olan namizədlər aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *KOICA ərizə forması;*
- *Ajou Universitetinin ərizə forması;*
- *əsaslandırma (motivasiya) məktubu;*
- *iki ədəd tövsiyə məktubu;*
- *diplom və diplom əlavəsinin notarial qaydada təsdiq edilmiş surəti;*
- *TOEFL və ya IELTS sertifikatı (olduğu təqdirdə);*
- *xarici pasportun surəti;*
- *3 x 4 ölçüdə iki ədəd fotoşəkil;*
- *CV.*

***QEYD: ingilis dilində olmayan bütün sənədlər bu dilə tərcümə olunmalı və notarial qaydada təsdiq edilməlidir.***

Proqram haqqında ətraflı məlumatları və ərizə formalarını əldə etmək üçün Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə müraciət edə bilərsiniz (Könül Məhərrəmova – tel: 496-33-11; daxili-248)

Təqaüd proqramında iştirak etmək arzusunda olan namizədlər sənədlərini 2 dekabr 2010-cu il tarixinə qədər Təhsil Nazirliyinin Beynəlxalq əlaqələr şöbəsinə (Könül Məhərrəmova – tel: 496-33-11; daxili-248) təqdim etməlidirlər.